# 525-ci qəzet

24 avqust 2012-ci il, cümə, №151 (3707). Qiymәti 20 qәpik

www.525.az

# “Elçibəyin məzarının açılmasına icazə verməyəcəyik”

## AZƏRBAYCANIN MƏRHUM EKS-PREZİDENTİNİN VƏSİYYƏTİ YAYILDI

Hazırda ölkə gündəmini məşğul edən məsələ Azərbaycan milli azadlıq hərəkatının lideri, mərhum eks-prezident Əbülfəz Elçibəyin zəhərləndirilərək öldürülməsi ilə bağlı iddia əsasında Bakı Şəhər Prokurorluğunda qaldırımlış cinayət işidir. Böyük müəmmalara və mübahisələrə səbəb olan mövzu ilə bağlı indi həm hüquq-mühafizə orqanlarında, həm də mediada araşdırmalar gedir.

Modern.az saytı bu yöndə araşdırmaları əsnasında Əbülfəz Elçibəyin ölümünə gətirib çıxarmış səbəblər haqqında mərhum eks-prezidentin özünün yazdığı iki məktubu əldə edib. Onları diqqətinizə çatdırırıq.




***Uca Türk millətinə müraciət***

— Bilirdim ki, məndə “xərçəng” xəstəliyi var. Amma mən bunu cəmiyyətdən gizlədirdim ki, müəyyən işləri görə bilim. Onu da bilmirdim ki, artıq əksəriyyət insanlar xəstəliyimi bilir və məndən ona görə gizlədiblər ki, narahat olmayım. Bu da çox pis nəticə verdi. Gərək xalq öz övladından heç nəyi gizli saxlamasın və eyni zamanda da övlad ondan heç nəyi gizlətməməlidir. Belə alındı ki, gerçəyi gizlətmək həm xalqa, həm də onun övladına heç bir xeyir vermədi.

Mən bir çox şeyləri “xalq bilib rahatsız olar, pis əhval-ruhiyyə yaranar” —deyə ondan gizlətdim.

Çox sirləri özümlə aparıram. Bunların bir çoxu açıqlanmalı idi, lakin buna zaman çatmadı. Demək olar ki, tale imkan vermədi.

Bir sıra xətalar buraxılmışdı ki, bunları aradan qaldırmaq mümkün idi. Millətim qarşısında bəzi xətalarım da olub. Xahiş edirəm, millətim məni bağışlasın. Deyəcəklər ki, üzrü sağ ikən etməli idi. Hər halda, görünür ki, tale belə məsləhət bilib.

Ayrı-ayrı şəxslər, xüsusilə də, mənə düşmən olanlar çox xoşagəlməz sözlər danışacaqlar. Ancaq mənim üçün əsas hökm Türk millətinin hökmüdür, Azərbaycan xalqının sözüdür!

Mən aydın görürəm ki, artıq həyatla vidalaşıram. Lakin bir çox ideyalarımın həyata keçdiyini görmədim. Ən başlıcası isə:

— Rusun əli ilə ermənilərin işğal etdiyi Qarabağı azad etmək istəyirdim. Bunu edə bilməsəm də mən artıq bilirəm ki, o mütləq azad olacaq!

— Azad surətdə Təbrizə getmək, onu azad görmək istəyirdim. Təbrizi azad görə bilmədim, ancaq indi elə fikirləşirəm ki, Təbrizi azad görmüşəm. Bu fikrimə “xəyaldır” deyəcəklər. Lakin elə deyil! Yaxın zamanlarda insanlar onu görəcəklər! Və onda biləcəklər ki, mənim düşündüyüm lap yaxında imiş.

*Ardı 3-cü səh.*

# Əhməd Davudoğlu Ermənistanı ittiham etdi

## “AZƏRBAYCAN ƏRAZİLƏRİNİN İŞĞALDAN AZAD EDİLMƏSİ BİZIM XARİCİ SİYASƏTİMİZİN ƏSAS İSTİQAMƏTİ OLARAQ QALIR”



Qırğızıstanın paytaxtı Bişkekdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv ölkələrin xarici işlər nazirlərinin iclası keçirilib. APA-nın xəbərinə görə, tədbirdə Azərbaycanı xarici işlər nazirinin müavini Xələf Xələfov təmsil edib. İclasda qurumun simvolu da təqdim olunub. Simvol Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstanın bayraqlarındakı cizgiləri özündə əks etdirib. Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov çıxışında qurumun tarixindən danışıb, 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə Görüşünü xatırladıb. X. Xələfov Şuraya üzv dövlətlərin beynəlxalq təşkilatlar çərçivəsində də fəaliyyətlərini əlaqələndirdiklərini qeyd edib. O, Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinin həm də TDƏŞ ölkələrinin qələbəsi olduğunu bildirib. Azərbaycanın bölgənin enerji təhlükəsizliyindəki rolundan danışan diplomat Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələri, TANAR-ın Azərbaycan və Türkiyə tərəfindən həyata keçirilməsi haqqında da məlumat verib.

Nazir müavini Dağlıq Qarabağ münaqişəsi ilə bağlı geniş məlumat verib, bu məsələdə ATƏT-in Minsk qrupunun fəaliyyətini tənqid edib.

Qeyd edək ki, TDƏŞ-ə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan üzvdür. Xarici işlər nazirlərinin toplantısında Türkiyənin XİN başçısı Əhməd Davudoğlu, Qazaxıstanın xarici siyasət idarəsinin rəhbəri Erjan Kazıxanov və Qırğızıstanın xarici işlər naziri Ruslan Kazakbayev, həmçinin TDƏŞ-nın baş katibi Xəlil Akıncı və TürkPA-nın baş katibi Ramil Həsənov da iştirak ediblər.

Qeyd edək ki, tədbirdə çıxış edən Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin həllində tutduğu qeyri-konstruktiv mövqeyi kəskin tənqid edib. AzərTAc-ın məlumatına görə, Ə. Davudoğlu bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Cənubi Qafqazda sabitliyin saxlanmasını əngəlləyən maneədir: “Dağlıq Qarabağ və işğal altında olan digər Azərbaycan ərazilərinin azad edilməsi bizim xarici siyasətimizin əsas istiqaməti olaraq qalır, bundan sonra da bu istiqamətdə fəaliyyət göstərəcəyik. Biz Azərbaycan torpaqlarının 20 faizinin işğal edilməsi və azərbaycanlı qardaşlarımızın zorla öz evlərindən didərgin salınmasına qəti etirazımızı bildiririk. Münaqişənin sülh yolu ilə həll olunması üçün 20 ildən bəri davam edən danışıqların nəticəsiz qalması bizi ciddi narahat edir. Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməyincə, Cənubi Qafqazda və Orta Asiyada sülh, sabitlik və əmin-amanlığa nail olmaq çətin olacaq”.

Ə. Davudoğlu qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri, həmçinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və Türkiyə bu istiqamətdə öz səylərini davam etdirəcək.

# Mexikoda Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə qoyulub

## MEKSİKA PAYTAXTINDA HEYDƏR ƏLİYEVİN DƏ HEYKƏLİNİN AÇILIŞI OLUB

Avqustun 22-də Meksikanın paytaxtı Mexikodakı Azərbaycan-Meksika dostluğu parkında Heydər Əliyevin heykəlinin açılışı olub. APA-nın məlumatına görə, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Elman Abdullayev bildirib. E. Abdullayevin sözlərinə görə, dünən həmçinin Xocalı faciəsi qurbanlarının xatirəsinə ucaldılmış abidənin də açılışı keçirilib. Mexikonun Tlakskoake meydanı təmir olunduqdan sonra orada Xocalı abidəsi qoyulub və adı dəyişdirilərək Tlakskoake-Xocalı olub. Açılış mərasimlərində baş nazirin müavini Əli Həsənovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti, Mexikonun meri Marselo Embrard, senatorlar, deputatlar iştirak ediblər.

# Gülün səhhətində problemlər yarandı

Qırğızıstanın paytaxtı Bişkekdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) sammitinə qatılan Türkiyə prezidenti Abdullah Gülün səhhətində problem yaranıb.

APA-nın “Anadolu” agentliyinə istinadən verdiyi məlumata görə, bu səbəbdən o, sammiti yarımçıq tərk edərək, Türkiyəyə dönməli olub. A. Gülün qulağında kəskin ağrılar yarandığı bildirilir.

A. Gül sammitin açılış mərasiminə qatılıb. Burada o Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Qırğızıstan prezidenti Almazbek Atambayev və Azərbaycanın baş naziri Artur Rasizadə ilə görüşüb.

# ATƏT cəbhədə monitorinq keçirdi

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq avqustun 23-də Azərbaycan Respublikasının Ağdam rayonu Mirəşelli kəndinin yaxınlığındakı təmas xəttində monitorinq keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, monitorinq insidentsiz keçib.

Monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçisi Antal Herdiç və ofisin əlaqələndiricisi Piter Ki, təmas xəttinin qarşı tərəfində isə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, səhra köməkçisi Jiri Aberle və şəxsi köməkçi Uilyam Prayor keçiriblər.

# Atəşkəs yenə pozuldu

Erməni silahlı bölmələri dünən və bu gecə Goranboy rayonunun Tapqaraqoyunlu, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, düşmən cavab atəşi ilə susdurulub.

# Yaşar Nuri Türkiyədəki Amerika Xəstəxanasına yerləşdirilib

Azərbaycanın Xalq artisti, Dövlət Akademik Milli Dram Teatrının aktyoru Yaşar Nuri yenidən Türkiyəyə aparılıb. Aktyorun ailəsindən APA-ya verilən məlumata görə, Yaşar Nuri ötən gün axşam Türkiyədəki Amerika Xəstəxanasına yerləşdirilib. Aktyor yenidən müvafiq müayinələrdən keçəcək və lazımi müalicə kursu müəyyənləşdiriləcək. Xalq artistinin həyat yoldaşı Rəhimə Nuriyeva isə aktyorun yanına bu gün axşam gedəcək.

Yaşar Nurinin bu dəfə Türkiyədə nə qədər qalacağı məlum deyil.

# Füzuli və Cəbrayılın işğalının ildönümü qeyd edildi

Dünən Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarının Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilməsindən 19 il ötür. APA-nın məlumatına görə, bu münasibətlə Füzuli Rayon İcra Hakimiyyətinin (RİH) rəhbərliyi, bu rayondan olan millət vəkilləri, Füzuli və Cəbrayıl ictimaiyyətinin, həmçinin Qarabağ Azadlığı Təşkilatının üzvləri Şəhidlər Xiyabanını ziyarət ediblər. Füzuli Rayon İcra Hakimiyyəti adından Əbədi Məşəl Kompleksi önünə əklil qoyulub. Füzulidən millət vəkili, Milli Məclis sədrinin müavini Bahar Muradova jurnalistlərə açıqlamasında bildirib ki, bu gün Füzuli rayonunun işğaldan azad olunmuş ərazilərində geniş abadlıq-quruculuq işləri aparılır: “Əhali bu gün cəbhə zonasında xidmət edən Azərbaycan Ordusunun əsgərlərinə güvənir, doğma torpaqlarına qayıdacağı günü səbirsizliklə gözləyir. Əgər Azərbaycan güc dili ilə danışmağa başlasa, qısa zamanda ərazi bütövlüyünü təmin edəcək. Bunu bütün dünya bilir”. B. Muradova qeyd edib ki, bu gün 60 mindən çox Füzuli sakini işğaldan azad edilmiş ərazilərə qayıdıb və orada məskunlaşıb.

Füzuli RİH başçısı Alı Alıyev isə deyib ki, işğal nəticəsində rayona milyardlarla manat dəyərində zərər dəyib, rayon mindən artıq şəhid verib: “Bu gün cəbhə bölgəsində yaşayan əhalinin Azərbaycan Orduduna güvənir. Həm rayon əhalisinin əhval-ruhiyyəsi, həm də ordumuzun təminat və təchizatı onu deməyə əsas verir ki, qısa zaman kəsiyində ərazilərimizi azad edə bilərik. Elə yaşayış məskəni var ki, düşmən mövqeləri ilə 400 metr məsafədə yerləşir, lakin bu, insanlarımızı qorxutmur”. A. Alıyev bu gün atəşkəsin cəbhədə ən çox Füzuli istiqamətində pozulduğunu da vurğulayıb.

Rayonda gedən döyüşlərdə iştirak etmiş istefada olan polkovnik-leytenant Tariyel Qəhrəmanov isə Füzulinin işğalının təməlinin 1992-ci ilin yayında Qırmızı Bazar və Məlikcan istiqamətindəki uğursuz əməliyyatlarla başlandığını qeyd edib: “Biz 1994-cü ilin yanvarında bir gün ərzində keçirdiyimiz əməliyyatla rayonun 12-dən artıq yaşayış məntəqəsini işğaldan azad etdik. Bu onu deməyə əsas verir ki, bu gün hərbi əməliyyatlar başlarsa, qısa müddətdə ərazilərimizi geri qaytaracağıq. Biz keçmiş döyüşçülər arzumuzu reallaşdırmaq üçün o günü səbirsizliklə gözləyirik”.

# “Mövcud seçki qanunvericiliyin ədalətli seçkilər keçirmək üçün əlverişlidir"

“Yeni Azərbaycan Partiyası dəfələrlə bəyan edib ki, mövcud seçki qanunvericiliyi Azərbaycanda ədalətli, şəffaf və hüquqa söykənən seçkilər keçirmək üçün əlverişlidir və bu qanunvericilik bazası indiyə qədər keçirilmiş seçkilərdə özünü doğruldub”. APA-nın məlumatına görə, bunu partiyanın saytına müsahibəsində YAP İcra katibinin müavini, Milli Məclisin deputatı Mübariz Qurbanlı deyib. M. Qurbanlı bildirib ki, mövcud Seçki Məcəlləsi hazırlanarkən beynəlxalq qurumların, ATƏT-in və Avropa Şurasının müvafiq tövsiyələri nəzərə alınıb: “Bu məcəllə əslində, bütün siyasi partiyaların maraqlarını ifadə edən sənəddir. Məcəlləyə uyğun olaraq bütün siyasi partiyalar qanun çərçivəsində seçki prosesində iştirak edə bilər”.

O qeyd edib ki, seçki komissiyaları tam müstəqildir və onlar heç bir siyasi qüvvədən asılı vəziyyətdə deyil: “Komissiyalar paritet əsaslarla parlamentdə çoxluq və azlığı təmsil edən partiyaların, eləcə də bitərəflərin nümayəndələrindən təşkil olunur. Eləcə də, dövlət normal seçkilərin keçirilməsi üçün bütün şəraiti yaradıb. Əlbəttə ki, vaxtaşırı olaraq seçki qanunvericiliyinə müvafiq dəyişiklər edilir və gələcəkdə də bu qanunvericiliyin təkmilləşdirilməsi yönündə müəyyən addımlar atıla bilər. Amma bütövlükdə Seçki Məcəlləsi beynəlxalq standartlara uyğundur və sənədi köklü surətdə dəyişməyə ehtiyac yoxdur”. Onun sözlərinə görə, bu qanunvericilik əsasında gələn il də azad, ədalətli və demokratik seçkilər keçirməyə nail olunacaq: “Odur ki, müxalifəti təmsil edən siyasi partiyaların, təşkilatların seçki qanunvericiliyi ilə əlaqədar iradları və iddiaları əslində həmin təşkilatların növbəti seçkilərdə uğursuzluqlarını indidən sığortalamaq məqsədi daşıyan təbliğat xarakterli addımlardır”.

# Meteoroloqlardan xəbərdarlıq

Bakı və Abşeron yarımadasında avqustun 24-də hava şəraitinin dəyişkən buludlu, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturu gecə 20-23, gündüz 28-33 dərəcə isti olacağı gözlənilir.

Abşeronun çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 24-25, Buzovna, Mərdəkan, Şüvəlanda 25-26, Türkan, Hövsan, Şıx, Sahildə 26-27 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında avqustun 24-də əsasən cənub və şərq rayonlarında şimşək çaxacağı, yağış yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23, gündüz 30-35, dağlarda gecə 9-14, gündüz 22-27 dərəcə isti olacaq.



Tibbi-meteoroloji proqnoza əsasən, yaxın iki gündə Bakıda və Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim təərəddüdü meteohəssas insanlar üçün əlverişli olsa da, cənub-şərq küləyinin üstünlüyü, eyni zamanda rütubətli hava şəraiti bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

# Britaniya kəşfiyyatından sensasiyalı açıqlama

## “XAMNEYİ “EUROVİSİON” GÜNLƏRİNDƏ AZƏRBAYCANDA TERROR AKTLARI TÖRƏDİLMƏSİ BARƏDƏ ŞƏXSƏN GÖSTƏRİŞ VERİB”

Britaniyanın tanınmış “The Telegraph” qəzeti Britaniya kəşfiyyatına istinadən sensasiyalı məqalə dərc edib. Vesti.az saytının verdiyi məlumata görə, İranın ali dini lideri Ayətullah Xamneyi İran İslam İnqilabı Keşikçiləri Korpusunun (Quds Force) xüsusi bölmələrinə “Eurovision” mahnı müsabiqəsi günlərində Azərbaycanda terror aktları törətmək barədə şəxsən göstəriş verib.

“Terror aktlarının məqsədi Qərbi və onun tərəfdarlarını vahiməyə salmaq olub. Kəşfiyyat həmçinin müəyyənləşdirib ki, xüsusi bölmə Səudiyyə Ərəbistanının Vaşinqtondakı səfirinə qarşı da terror hazırlayıb. Artıq ötən il onu öldürməyə cəhd edilib. O da xəbər verilir ki, terrorçular Bakıdakı İsrail diplomatlarını partlatmağı planlaşdırıblar və bu məqsədlə üç partlayış hazırlayıblar. O da məlumdur ki, ötən il Keniyada partlayıcı maddə əldə etmək istəyən iki İran vətəndaşı tutulub”, — deyə məqalədə bildirilir.

Qeyd edək ki, yerli mətbuat da İran kəşfiyyatının “Eurovision” günlərində Bakıda terror aktları planlaşdırdığı barədə dəfələrlə yazıb.

Bundan başqa, Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi İran xüsusi xidmət orqanları ilə əlaqədə olan bir neçə nəfərin zərərsizləşdirilməsi barədə açıqlama yayıb. Bütün bunlar Britaniya kəşfiyyatının versiyalarının əsassız olmadığını göstərir.

Xatırladaq ki, İran hakerləri bu ilin yanvarında Azərbaycanın bir neçə dövlət orqanının saytını dağıdıblar. Onu da əlavə edək ki, İranın ali dini lideri Ayətullah Seyid Əli Xamneyi azərbaycanlıdır.

“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

# İrəvanda Azərbaycan mətbuatının təməl daşı: "Lək-lək" satirik jurnalı

*Şəfəq NASİR*

*(Əvvəli ötən sayımızda)*

“Lək-lək” hansı mövzulardan bəhs edirdi? Ədəbiyyat, siyasi lüğətlər, xəbərlər, məzhəki elanlar, satirik şeirlər, teleqraf xəbərləri, şəhər aralığından qələmə alınmış yazılarda İrəvanın ictimai-siyasi mühiti, xalqın taleyi, məişət həyatı, ictimai qüsurları ilə bağlı maraqlı yazılara yer verirdi. Jurnal bir qayda olaraq keçmiş SSRİ-nin bir çox şəhərlərində nəşr olunacaq qəzet və jurnalların elanını dərc etmiş, öz səhifələrində maraqlı xəbərlərə yer vermişdir.

Jurnal elə ilk sayından İrəvanda azərbaycanlıların ictimai-mənəvi taleyini həssaslıqla işıqlandırmağa cəhd etmişdir. Bu istiqamətdə fəaliyyət göstərən “Lək-lək” xalqın maddi-mənəvi geriliyinə yanır, millətinə xeyir verməyən, onun dərd-sərinə biganə qalan az-çox təhsil görmüş cavanların həyat tərzini müşahidə edir, naqisliklərini hədəfə alaraq onlara gülürdü. “Hərif” imzalı müəllifin”Nifrətnamə” şeirindən bir parçaya diqqət edək:

**Durma yol üstə, kablayı, gəl çəkilək bir az yana,**
**Gör (student) qatarını, dinmə, gedirlər şantana.**
**Getdi birisi Moskvaya, etmə ümid qayıtmağa,**
**Kursu çıxanda başlayır çulu, palazı satmağa.**
**“Madmazel” aləmin görüb, donbalanır sola-sağa,**
**Fatmanı görcəyin deyir: Ax ti bolşoy qurbağa.**
**Canını qurban eləyir elmli-başlı ceyrana.**

Demokratik düşüncəyə meylli olan “Lək-lək” öz səhifələrində dərc olunmuş felyeton, satirik məqalələrdə savadsız və avam kəndlilərin bir ovuc ermənilərin müsəlmanlara verdiyi sıxıntılar içərisində yaşadıqlarını açıqca tənqid edirdi. Maraq doğuran cəhətlərdən biri də budur ki, bütün bunlara özümüzünkülərin günahkar olduğu aşkar görünür. Jurnalın ikinci sayında dərc olunmuş “İnsaniyyət” məqaləsi bu mənada diqqəti çəkir. “Müqəllid, yaxud Noxtalı” imzalı müəllif yazır:

“... Məsələn, bir gün biri gəlib deyir:

— Cənab müdir, axır sən bir ağıllı adamsan. Sən bilərsən. Bax bu kəndlilər ki, bu qədər musurmanı burada qoyub, gedib ermənilərdən, cuhudlardan alış-veriş eləyirlər. Tez buna bir əlac tap! Əsnaf lap yandı, qırıldı...” Məlum olur ki, nəinki kəndlilər, savadsızlar, elə oxumuşlar, mollalar da özününkülərlə al-ver etməyib, xeyiri ermənilərə, ruslara, cuhudlara verirlər. Burda yazı müəllifinin ifşa hədəfləri aşkar görünür. Və “Noxtalı” cənabları belələrini məsxərəyə qoymaqdan çəkinmir: “İstəyirəm gedim deyim ki, ay kəndli qardaş, o şələ papağına qurban olum, axı təəssüb din təəssübüdür. Onda yenə düşünürəm ki, bu zəmanənin məxluqu söz mətəli deyil. Deyəcək ay cənab, bircə mənə de görüm bu bəzzazlar özləri şəkəri və çayı, parçanı haradan alırlar? Yainki bu moskvaçılar, tiflisçilər çiti, mahudu haradan gətirirlər? Lap mat qalıb deyəcəyəm ermənidən, urusdan, cuhuddan. O da deyəcək sərkar, bəs eləsə bizi məzur tutun. Bu ki, əvvəl-axır onlardan alınası şeydir, daha biz bu ağaların zəhmətinə razı olmuruq ki, burdan Moskova-filana getsinlər. Özüm-özümə bu cavabları verəndən sonra hansı dükana gedirəm ki, ay kişi, heç Mehdi Tağıyevin avtomobil paprosundan sizdə tapılar? Deyirlər yoxdur. Tağıyevin çitini-bezini vallah tanımıram ki, tutum kəndlilərin gözünə dürtüm ki, bax, bütün-bütünə papirosdan bezə kimi nə qədər fabrikalar varsa müsəlmanlarındır. Sən də musurmandan al!



Sonra düşünürəm ki, kəndlilərə deyim ki, bu çay-şəkər murdardı. Bunu nə alın, nə də satın! Nə də için! Onda da öz sözümdən utanıram. Mən bu yekəlikdə yalanı necə deyim? Halbuki bunları cənab müctəhidlər özləri də meyl buyururlar. Axırda deyirəm, insaniyyətdir, baba, əl çək!”

Nadanlığın, ictimai qüsurların içərisində yaşayan “Lək-lək”in ifşa hədəfləri müxtəlifdir, yetərincədir. Bu sıradan o,İrəvanda “Cəmiyyəti-xeyriyyə”nin açılmasında bir rəyə gələ bilməyən başbilənlərin bir-birinə zidd fikirlərinə rişxənd edir. Yaxud başqa bir xəbərdə gecə kursları məsələsində də millətin savadlanması qeydinə qalmaqdansa aralarında konflikt yaradan müxtəlif firqə nümayəndələrinin bir-biri ilə dil tapa bilməməsinə istehza edir. Məişət qayğılarının yaşamaq yolunda ağır, dözülməz dərdlərə, çarəsizliklərə gətirib çıxarması halları ciddi tənqid olunur.

Jurnalda xalqın ictimai, mədəni həyatı ilə bağlı hər sayda verilmiş bir-




birindən maraqlı elanlar oxucuda rəğbət doğurur. Müsəlman qadınlarının teatr tamaşalarına baxmasına şərait yaratmaqdan ötrü günorta tamaşaları barədə “Apollo teatrosu”nun anonsu, Novruz bayramı münasibətilə Mirfətullayev bəradərlərinin mağazasında ucuz qiymətlə satışa qoyulan malların çeşidi və güzəşti, xaricdən gələn təcrübəli diş həkiminin xidmət növü və şəraiti, əkin-biçindən ötrü cürbəcür gül-çiçək, pencər toxumlarının satışı, xalis və təmiz şirniyyatların satıldığı qənnadı dükanının reklamı bir əsr bundan qabaq İrəvanda soydaşlarımızın həyatını, yaşam tərzini, mədəni-mənəvi güzaranı, gözlərimiz önündə canlandırır. Burada oxucuya maraqlı görünən də odur ki, bu elan və xəbərlərdə qədim yaşayış məskənimiz olan İrəvan quberniyasında adları çəkilən mülklərin, imarətlərin, dükanların məhz azərbaycanlılara məxsus olması bugünkü baxışla yad edilir. Yəni öz yurdunda öz mülkünün, torpağının sahibi olması faktları bir hüquqi sənəd kimi xatırlanır.

Zamanın aktual mövzusu, ağrılı problemi olan məktəbsizlik, elmsizlik dərdi dövrün maarifpərvər ziyalılarını həmişə düşündürmüş, bu yolda onları ideoloji mübarizəyə səfərbər etmişdir. Yeni üsullu məktəblərin açılması, dərslərin səviyyəsi məsələsini “Lək-lək” də mətbuat nəzərləri ilə izləmiş, bu sahədəki qüsurları, yarıtmaz halları satirik bir üslubda tənqid etmişdir. “İrəvanda “Rusko-tatarski” məktəb və yaxud veyillərin fabrikası” məqaləsində müəllif ana dili və rus dilinin tərəfdarlarının fikirlərini açıqlayır, heç bir hazırlığı olmadan böyük sərmayə toplamaqla guya yeni bir məktəb açılmasını və onun da ixtiyarının ruhanilərə verilməsini götür-qoy edənlərin fikrinə diqqət yönəldir. Lakin məktəbdə uşaqlara veriləcək biliyin, tədrisin səviyyəsi onları narahat etmir. Bundan sonra müəllif oxucusunu yuxarıda adı çəkilən məktəblə tanış edir, onun ”üstünlüklərini” açıb göstərir. Və sonda bu məktəbin fəaliyyətinə heyrətini gizlədə bilmir: “Mənə ən heyrət verən şey burasıdır ki, öz-özümə deyirəm: Görəsən bu şkolu bir onca il beləcə başına qoyasan, heç dindirməsən, buradan ildə neçə təsbih veyl uşaq çıxar ki, axırda İrəvana desinlər Veyillər mədəni”.

Jurnalın üçüncü sayında “Mükafat, yaxud ikisi də ecazdır” məqaləsində müəllif millətinin işıqlı insanlarına, ziyalılara, şair və ədiblərə qənim kəsilən, imkan tapan kimi onlara sui-qəsd edən mollaları, mövhumatçıları tənqid atəşinə tutur. Onların şər əməlləri ilə ermənilərin öz xalqının şair oğlunun xatirəsini əbədiləşdirən xeyirxahlığını müqayisə edir: “Ermənilər 9 il bundan əqdəm İrəvan mahalının Kənəkir kəndindən çıxma bir şairləri var imiş ki, İrəvan şəhər məktəbində inspektorluq edirmiş. Özünün də adı Xaçatur Abovyan imiş. İndi ermənilər yığışıb şəhər bulvarının küncündə məbəriamda heykəlini nəsb etmək üçün ağır bir qiymətə yer alıblar. Özünü ki, dirildə bilmirlər, barı müDN




cəssəməsini yapdırsınlar ki, İrəvana gələn səyyahlar görsünlər ki, bunların bir belə milli şairləri var imiş. Özü yaşamasa da adı qiyamətə kim qalsın. Odur ki, Bakıdan, Qubadan, Ordubaddan, Naxçıvandan, hər yerdən bizim də molla yavalarımız öz milli şairlərinə mürtəd deyib, qətlinə fitva verirlər ki, özlərini erməni ruhanilərinin qabağında başı uca etsinlər ki, onların yekə babası da bu qozlardan qırmayıb. Biz bir-birimizi qırmaqdan usanıb, indi şairləri, yazıçıları öldürürük. Necə ki, Hacı molla Ruhullanı Bakıda, Yusif Heydərzadəni Mərvdə şəhid etdilər...Onlar Xaçaturu dirildir, bunlar da Müznübü öldürür. Heç təfavüt etməz”.

“Lək-lək”in səhifələrində xalqın milli mənafeyini ifadə edən, ictimai problemlərini çözən, dövrün ictimai-siyasi mənzərəsini işıqlandıran müxtəlif janrlarda və mövzularda dərc olunmuş bütün yazılar maraqla oxunur. Hətta bədii cəhətdən zəif olan bəzi şeirlərdə, satirik yazılarda qaldırılan problemlər fakt və hadisələrin reallıqla işlənməsi baxımından həmin dövrün ictimai-ədəbi mühitini duymağa və qiymətləndirməyə imkan verir. Jurnalın dilinin bir qədər ağır, səliqəsiz və çətin olması onun ətrafında bəhs açmağa, İrəvanda ilk Azərbaycan mətbuatının müjdəçisi olması baxımından tədqiq edilməyə əsla mane olmur.

**(Ardı var)**

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

## "Regionlarda gənclərin məşğulluğu üzrə məsləhət xidmətləri" layihəsi həyata keçirilir

“Gənclərin Hüquqi Maarfləndirməsi” İctimai Birliyi Gənclər və İdman Nazirliyinin dəstəyi ilə “Regionlarda gənclərin məşğulluğu üzrə məsləhət xidmətlərinin həyata keçirilməsi” layihəsinin icrasına başlayıb. Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, layihənin məqsədi Mingəçevir və Qubada gənclərin məşğulluğu istiqamətində hazırki vəziyyəti nəzərə alaraq onun yaxşılaşdırılması üçün “Gənclərin Məşğulluğu üzrə Məsləhət Xidmətlərinin yaradılması” və bu yolla mövcud problemin aradan qaldırılmasına səy göstərməkdir. Mingəçevir və Qubada işsiz gənclərin məşğulluğunun təmin edilməsi üçün məlumat, maarifləndirmə xidmətlərinin, həmçinin sosial, hüquqi bilik və bacarıqlarının yüksəldilməsi alətlərinin tətbiqi, qaldırılan problemin həlli ilə bağlı məlumat bazasının yaradılması, layihə fəaliyyəti çərçivəsində göstəriləcək xidmətlər üzrə gənclərin müəyyən edilməsi və onlarla intensiv iş layihənin əsas istiqamətlərindəndir. Məlumatda bildirilib ki, “Gənclərin Məşğulluğu üzrə Məsləhət Xidmətləri” layihəsi başa çatdıqdan sonra fəaliyyətlərinin istiqaməti və metodlarının tətbiqi üzrə mexanizmlərin hazırlanması icra ediləcəkdir. Layihə çərçivəsində Mingəçevir və Qubada işsiz gənclərin siyahısı tərtib olunacaq, planda nəzərdə tutulan yeni iş yerlərinin siyahısı hazırlanacaq, yeni açılmış iş yerləri və digər müəssisələrdə vakant yerlər müəyyən olunaraq, informasiya bazası tərtib ediləcəkdir. Eyni zamanda gənclər arasında maarifləndirmə və məlumatlandırma, gənclərin işlə təmin olunmasında vasitəçilik, biznes planları olan gənclərin maliyyə axtarışına yardım, gənclərin biznes planlarının hazırlanmasında kömək, yeni biznesin açılmasında gənclərə hüquqi dəstək, gənclərin peşə ixtisası seçimində müvafiq metodların tətbiqi üzrə məsləhətlər və sair fəaliyyətlər də, layihənin tərkib hissəsidir. Bunları reallaşdırmaq üçün layihənin işçi qrupuna marketoloq, iqtisadçı, hüquqşünas və sosioloq daxil ediləcək. Layihənin gedişi zamanı mütəxəssislərə ehtiyacı olan biznes strukturların rəhbərləri ilə işsiz gənclər arasında əlaqələrin qurulması nəzərdə tutulub. Həmçinin biznes planları olan və ya onları tərtib etmək arzusunda olan gənclərə də məsləhətlər verilməsi, sonradan onların kredit, yaxud qrant ayıran qurumlara göndərilməsi nəzərdə tutulub.

**S.QARAYEVA**

## Təhsil Nazirliyi xaricdə təhsil almaq istəyənlərə tövsiyələr ünvanlayıb

Təhsil Nazirliyi “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində xaricdə təhsil almaq istəyən gənclərə və onların valideynlərinə ixtisas seçimi zamanı bir sıra sahələrə diqqət yetirməyi tövsiyə edib.

Nazirliyin Beynəlxalq əlaqələr şöbəsindən verilən məlumata görə, hazırda Azərbaycanda nanotexnologiya, kənd təsərrüfatı, kimya mühəndisliyi, dəqiq elmlər üzrə kadrlara daha çox ehtiyac olsa da, bu sahələr üzrə xaricdə təhsil almaq üçün müraciət edənlərin sayı çox azdır. Bu sahələr daha perspektivlidir, bu sahələrdə iş tapmaq daha asan olacaq. Bizə Dövlət Neft Fondundan, müxtəlif xarici təşkilatlardan neft-kimya sahəsi üzrə mütəxəssis istəsələr də, nazirlik onları tapmaqda çətinlik çəkir. Halbuki bu sahədə çalışanların əməkhaqqı humanitar sahədə çalışanların əməkhaqlarından çoxdur. Ona görə də nazirlik tövsiyə edir ki, bu sahələrə çox diqqət yetirilsin. Nəzərə alınmalıdır ki, neft sahəsi Azərbaycanda prioritet sahədir. Nazirlikdən bildirilib ki, bu il bir neçə nəfərin çox ehtiyac duyulan nanotexnologiya, biologiya, kimya mühəndisliyi üzrə xaricdə təhsil almaq üçün müraciət etməsi çox sevindiricidir. Məlumatda qeyd olunub ki, xarici dil bilməmək də gənclərin prioritet istiqamətlər üzrə xaricdə təhsil üçün az müraciət etməsinə səbəb olur. Ona görə ali məktəblər də bu problemi aradan qaldırmaq üçün çox iş görməlidirlər. Problemi aradan qaldırmaq üçün ali məktəblər özləri müxtəlif dil kursları aça bilərlər. Bu sahədə nazirlik də məktəblərə kömək edə bilər. Gəncədəki Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələri üçün xarici dil bilməmək problemi aradan qaldırılsa, bu məktəbdən xaricdə kənd təsərrüfatı sahəsi üzrə təhsil almaq üçün müraciət edənlərin sayı artar.

Qeyd edək ki, bu günədək “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində 1204 nəfər təhsil almaq hüququ qazanıb. DP çərçivəsində təhsil almaq üçün müraciət edənlər ən çox tibb ixtisasını seçirlər. Bu sırada sonrakı yerləri isə informatika və iqtisadiyyat sahələri tutur.

**S.QARAYEVA**

## 141 mindən çox ailəyə ünvanlı sosial yardım verilir

Ölkədə 629129 nəfər ailə üzvünü əhatə edən 141 378 ailəyə ünvanlı dövlət sosial yardımı təyin edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən xəbərə görə, avqustun 1-ə olan məlumata əsasən onlardan 79 559-u 2012-ci ildə yardım təyin edilən, 39 573-ü ilk dəfə ünvanlı yardım təyin olunan, 110 062-i isə dövlətdən ilk dəfə yardım alan ailələrdir.

Ünvanlı dövlət sosial yardımı alan ailələrdə 306308 nəfər yaşı 18-dək olan, 9 669 nəfər 1 yaşadək olan ailə üzvləridir. Həmin ailələrdə sağlamlıq imkanları məhdud 18 yaşınadək ailə üzvlərinin sayı 9 764 nəfər, üzrlü səbəblərə görə işləməyən əmək qabiliyyətli ailə üzvlərinin sayı 59 926 nəfər təşkil edir. Yardım təyin olunan ailələrdən 58 627-i 3 və daha çox uşağı olan, 666-ı tərkibində müharibə əlili olan, 18 059-u tərkibində digər səbəblərdən əlil olan, 12 552-i məcburi köçkün, 39-u isə şəhid ailələridir.

Ayda orta hesabla hər ailəyə 110,26 manat, hər ailə üzvünə isə 24,78 manat ünvanlı yardım ödənilir. Ünvanlı yardım alan ailələrdən 99,7 faizi yardımı plastik kart vasitəsi ilə alır. Ünvanlı yardımın hesablanması üçün ehtiyac meyarının məbləği 2006-ci ildəki 30 manatla müqayisədə ötən müddətdə təxminən 3 dəfəyə yaxın artırılaraq cari ilin əvvəlindən 84 manata çatdırılıb.

Aztəminatlı ailələrin potensialları nəzərə alınmaqla aktiv sosial müdafiə proqramlarına cəlb olunması yolu ilə onların özünütəminetmə imkanlarına malik olması üçün “Özünədəstək” layihəsinin icrası işləri uğurla davam etdirilir. Artıq ölkənin 13 rayonu üzrə ünvanlı dövlət sosial yardımı alan ailələrdən 263 ailə seçilərək “Özünədəstək” layihəsinə cəlb olunub. Layihənin bütün ölkədə tətbiqi nəzərdə tutulur.

**BƏXTİYAR**

## Növbəti tədris ilindən orta məktəblərdə ikinci xarici dil tədris olunacaq

2012-2013-cü dərs ilindən etibarən V siniflərdən başlayaraq ikinci xarici dil tədris olunacaq. Təhsil Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, “Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları” sənədinə əsasən, ümumtəhsil məktəblərinin ümumi orta və tam orta təhsil səviyyələrində tədris olunan fənlərin siyahısına ikinci xarici dil daxil edilib. Müvafiq pedaqoji kadr potensialı və tədris bazası olduğu halda, ikinci xarici dilin öyrənilməsindən imtina olunması yolverilməzdir. İkinci xarici dilin tədrisini təmin etmək məqsədilə əməkhaqqı mövcud qaydada ödənilməklə digər təhsil müəssisələrindən müəllim dəvət oluna bilər. Azərbaycanın ümumtəhsil məktəbində tədrisi nəzərdə tutulan xarici dil ingilis, alman, fransız, rus, ərəb, fars dilləri arasından seçilir. Tədris dilindən asılı olmayaraq, bütün ümumtəhsil məktəblərində xarici dilin tədrisi I sinifdən başlanır. Tədrisi I sinifdən başlanan xarici dil uşağın məktəbdə öyrəndiyi əsas xarici dil hesab edilir. Xarici dilin tədrisi üçün məktəbdə müvafiq pedaqoji kadr potensialının və maddi-tədris bazasının olması zəruri şərt hesab edilir. Bir neçə xarici dil tədris olunan məktəbdə övladı üçün müvafiq xarici dil onun valideyni tərəfindən seçilir. Valideynlərin seçimi ilə bağlı zərurət yaranarsa, eyni sinifdə iki xarici dil qrupu təşkil oluna bilər. Bu halda qrupların bərabər şagird sayı, yaxud qismən az say fərqi ilə komplektləşdirilməsi, məktəbdə həmin xarici dillərin hər biri üzrə ən azı iki nəfər müəllimin olması nəzərə alınır. İkinci xarici dilə ayrılan saat əsas xarici dilin öyrənilməsinə, ümumiyyətlə xarici dil keçilməyən məktəblərdə isə “Texnologiya” fənninin tədrisinə verilir.

**S.QARAYEVA**

## “City Mart” mağazalar şəbəkəsində yararsız məhsullar aşkarlanıb

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, S.Vurğun küçəsi 19 ünvanında fəaliyyət göstərən “Vini İnterneyşnl” MMC-də dövlət nəzarəti həyata keçirilib. Komitədən verilən məlumata görə, “Vini İnterneyşnl” MMC-yə məxsus “City Mart” ticarət şəbəkələrindən müxtəlif yarımfabrikat məhsullar seçilərək Komitənin Təcrübə-Sınaq Mərkəzinin (AzTEST) laboratoriyasına təqdim edilib. Aparılan sınaqların nəticələrinə əsasən yoxlanılmış məhsullardan “AL Kabeer” və “Topioca” nişanlı yarımfabrikatlar “mezofil aerob” və “fakultativ-anaerob” mikroorqanizimlərin miqdarına görə normativ sə-



nədin tələblərinə cavab verməyib. “City Mart” mağazasında aparılan yoxlama zamanı yararlılıq müddəti bitmiş bir sıra süd məhsulları aşkar edilərək aktlaşdırılıb. Həmçinin müxtəlif xarici ölkələrin istehsalı olan, keyfiyyət və təhlükəsizlik göstəricilərini müəyyən edən uyğunluq və gigiyenik sertifikatları olmadan satılan müxtəlif çeşiddə balıq konservləri, ət və ət məhsulları, müxtəlif nişanlı yarımfabrikatlar, kərə yağları, müxtəlif souslar, süd məhsulları, konservləşdirilmiş və qurudulmuş göbələklər, qənnadı məmulatları və sair ərzaq məhsulları aşkarlanıb. Araşdırma zamanı ticarət şəbəkəsində qablaşdırılan müxtəlif çeşiddə məhsulların saxlanma müddəti, istehsal tarixi və çəkisi haqqında məlumatlar istehlakçılara düzgün çatdırılmadığı da müəyyən edilib. Belə ki, qablaşdırılmış “American Fresh” nişanlı göbələyin çəkisi etiketdə 1 kq göstərildiyi halda faktiki çəkisinin 100 qr olduğu müəyyən olunub. Satılan bir qism məhsulların üzərində markalanma “Dövlət dili haqqında” və “Yeyinti məhsulları haqqında” Qanunlara zidd olaraq aparılıb.

Müəssisənin anbarında aparılan yoxlama zamanı anbarda mal qonşuluğunun pozulduğu və ərzaq məhsullarının saxlanma rejiminə riayət olunmadığı da aşkarlanıb.

Aşkar olunmuş nöqsanlarla bağlı müəssisəyə iradnamə və sertifikatsız məhsulların satışını qadağan edən tələbnamələr verilib.

**BƏXTİYAR**

## Azərbaycana gələn əcnəbilərin sayı 7,1 faiz artıb

2012-ci ilin I yarımili ərzində Azərbaycana gələn əcnəbi vətəndaşların sayı 1.088.823 nəfər olub. Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkəmizə gələn əcnəbi vətəndaşların sayında 72.264 nəfər və ya 7,1 faiz artım müşahidə olunub.

Bu ilin yanvar-iyun ayları ərzində ən çox artım Gürcüstan (21,9 faiz), Rusiya (9,8 faiz), Türkiyə (15,6 faiz), Almaniya (67,7 faiz), Özbəkistan (41,1 faiz), Böyük Britaniya (18,9 faiz) və Ukraynadan (10,8 faiz) gələn turistlərin sayında müşahidə olunub.

Eləcə də Avropa ölkələrindən gələn əcnəbi vətəndaşların sayında da artım müşahidə olunub. Bu hal Azərbaycanın Avropa məkanına yaxın olması və “Eurovision-2012” kimi mühüm tədbirlərin Azərbaycanda keçirilməsi digər Avropa ölkələrindən ölkəmizə turizm axımını intensivləşdirir.

İran Körfəzi və Yaxın Şərq ölkələri üzrə 51.112 nəfər və ya 34 faiz azalma müşahidə olunub. Bunun da əsas səbəbi Yaxın Şərqdə müşahidə olunan qeyri-sabit vəziyyətdir.

Eyni zamanda, 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 2012-ci ilin I yarımili ərzində xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayında 90.875 nəfər və ya 5,4 faiz artım müşahidə olunub.

**BƏXTİYAR**

# "Heç kəs siyasi tamaşa düzəltməsin"

## *AYDIN MİRZƏZADƏ:* "ƏBÜLFƏZ ELÇİBƏYLƏ BAĞLI MƏSƏLƏ HÜQUQİ NORMATİVLƏR ÇƏRÇİVƏSİNDƏ ARAŞDIRILIR"

Sabiq prezident Əbülfəz Elçibəyin ölümündən 12 il sonra onun zəhərləndirilib öldürülməsilə bağlı son günlər bir çox kütləvi informasiya vasitələrində müxtəlif fikirlər səsləndirilir. Bugünlərdə "Media forum" saytının suallarını cavablandıran Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov müzakirələrlə bağlı yaranmış fikirlərə öz münasibətini açıqlayıb. O, qanunla status almış keçmiş prezident kimi Əbülfəz Elçibəyin həyatı, xəstəliyilə bağlı səsləndirilmiş, ictimai rezonans doğurmuş, geniş müzakirələrə səbəb olan istənilən hadisə, fikir, xüsusilə rəsmi müraciətin araşdırılmalı olduğunu vurğulayıb: "Türkiyədə mərhum prezident Turqut Özalın zəhərləndirilməsi ilə bağlı məsələnin müzakirəyə çıxarılması, araşdırma aparılması niyə sual doğurmur?" Ə.Həsənova görə, iddiaçı açıq formada bəyan edir ki, Əbülfəz Elçibəyin zəhərləndiyini düşünür və bunun kimin tərəfindən törədilməsilə bağlı ad çəkib. Keçmişdə nazir olmuş, indi siyasi partiya sədri olan bir insanın Azərbaycanın keçmiş prezidentinin ölümündə cinayət tərkibinin olması ilə bağlı Respublika Prokurorluğuna rəsmi şəkildə daxil olmuş müraciəti necə araşdırılmaya bilər? "Əgər cinayət işi açılmasaydı, indi narazılıq edən insanlar hakimiyyəti Elçibəyin qatilinin tapılmasının qarşısını almağa çalışmaqda ittiham edəcəkdilər".

Şöbə müdirinin fikrincə, müxalifət ona görə kampaniya aparır ki, məsələnin araşdırılması ona sərf etmir. Vaxtilə Elçibəyin silahdaşı olmuş şəxslər birdən nəyinsə üstünün açılmasından, real nəticənin ortaya çıxmasından narahatdırlar.

Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadəyə görə isə, hakimiyyət hər zaman polemikalara açıqdır: "Hesab edirəm ki, Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovun açıqlaması cəmiyyət tərəfindən birmənalı qarşılandı. Onun gətirdiyi arqumentlərlə hətta Elçibəy tərəfdarları belə razılaşmalı oldular. Çünki Əli müəllim bir neçə prinsipial məsələni ortaya qoydu. Birincisi, Azərbaycan hüquqi dövlətdir, kimliyindən asılı olmayaraq hər bir vətəndaş hansısa bir



məsələ barəsində hakimiyyət orqanları qarşısında məsələ qaldırırsa, o, araşdırılmalıdır. Əgər rədd cavabı verilsəydi, artıq hakimiyyətin bu məsələdə ehtiyatlandığı barəsində fikirlər səslənəcəkdi. Müxalifət elə mövqe tutmağa çalışır ki, cinayət işi açılsa da, açılmasa da o bu faktordan hakimiyyətə qarşı mübarizədə istifadə etsin. Ümumiyyətlə, Azərbaycan müxalifətinin böyük bir hissəsinin bir prinsipi var: onlar cəmiyyətə hansısa bir layihə, hansısa bir strateji məsələ müzakirəyə təklif edə bilmirlər. Onlar gündəlik hadisələrlə yaşayırlar. Məsələyə radikallıq və populizmlə yanaşan siyasi dairələr heç bir zaman yaradıcı fikir səsləndirə bilmirlər. Cəmiyyət də hakimiyyətin müsbət fəaliyyətini birbaşa öz üzərində hiss etdiyinə görə, aydındır ki, hakimiyyətə daha çox dəstək verəcək. Müxalifət Hafiz Hacıyevin müraciətini qeyri-ciddi sayır. Bildirildiyi kimi, əgər həqiqətən də bu adam qeyri-ciddi idisə, nədən ona Elçibəy hökumətində nazir postu verilmişdi? Nədən uzun müddət onun açıqlamalarından müxalifət hakimiyyətə qarşı istifadə edirdi? Yəni göründüyü kimi, burada konyuktura və prinsip məsələsi deyil, əslində hansısa mövzunu gündəliyə gətirmək daha çox məqsəd daşıyır. Həmçinin iş burasıdır ki, Əli Həsənovun açıqlamasına qədər müxalifət sadəcə, hakimiyyəti ittiham edirdi. Həmin məsələlərdə özünün iştirakına, proseslərin getməsinə dair heç bir açıqlama vermirdi. Əli Həsənov bildirdi ki, mən bu proseslərin içərisində olmuşam. Elçibəyin Türkiyəyə müalicəyə göndərilməsi, təyyarə ilə təmin edilməsi, onun müalicəsinin birbaşa Heydər Əliyevin diqqət mərkəzində olduğunu göstərirdi. Və göründüyü kimi o, dünyasını dəyişəndə Azərbaycanın milli azadlıq hərəkatının görkəmli nümayəndələrindən biri kimi dəfn mərasimi dövlət səviyyəsində keçirildi. Bu gün də Fəxri Xiyabanda onun tərəfdarları onunla bağlı mərasimləri qeyd edə bilirlər.

Azərbaycan iqtidarının arqumentləri ortadadır. Bugünkü qəzetləri vərəqləyəndə orada bir ciddi əks-sədaya rast gəlinmədi. Yenidən ittiham, yenidən məsuliyyətdən qaçmaq və sairə. Ən maraqlı cəhət odur ki, bunların bəlkə də Əbülfəz Elçibəyin öldürülməsi ehtimalının araşdırılmasına o qədər də aidiyyəti yoxdur. Özünü Elçibəyçi adlandıran bugünkü siyasi dairələr sağlığında ona etinasızlıq göstərir, onun təcrübəsindən istifadə etməkdən imtina edir, onu lider kimi qəbul etməkdən boyun qaçırırdılar. Müxalifət dairələrinin heç birində bu gün Elçibəy irsinin öyrənilməsinə maraq hiss eləmirik. Yəni bunun özü müxalifətin Elçibəyə olan qeyri-səmimiliyini göstərir. O ki qaldı, onun öldürülməsi ehtimalı ilə məsələnin araşdırılmasına, heç kəs indidən proqnoz verməsin, nə də bu məsələdə bir siyasi tamaşa düzəltməsin. Maraqlı bir məqam var — bu gün Elçibəylə bağlı hakimiyyəti ittiham edənlərin bir qismi artıq prokurorluğa izahat verib, ancaq mətbuatda onlar izahatlarının məzmunu barəsində heç nə açıqlamırlar. Məsələ hüquqi normativlər çərçivəsində araşdırılacaq, müvafiq adamlar dindiriləcək və şübhəsiz ki, aralıq və son nəticə barəsində cəmiyyətə məlumat veriləcək".

**S.MÜRVƏTQIZI**

# "Elçibəyin məzarının açılmasına icazə verməyəcəyik"

## AZƏRBAYCANIN MƏRHUM EKS-PREZİDENTİNİN VƏSİYYƏTİ YAYILDI

***(Əvvəli 1-ci səh.)***

Bir xalq azadlıq əldə edirsə o xalqın həyatdan köçmüş insanlarının (əlbəttə, bu azadlığı istəyən və onun uğrunda mücadilə edən insanları nəzərdə tuturam) ruhu da orada iştirak edir! Azərbaycan xalqı bütövlükdə azad olacaq və birləşəcək! O zaman keçiriləcək tədbirlərdə, bayramlarda Azərbaycanın azadlığı uğrunda mübarizə aparmış insanların ruhu da iştirak edəcəkdir! Ruh ölməzdir! Millətini sevənin ruhu hər zaman millətiylə olacaq!

Əbülfəz ELÇİBƏY,
Ankara Dövlət Xəstəxanası
19.07.2000

✦✦✦

Türkiyədə və Azərbaycanda olan türk aydınlarımıza kiçik bir xatırlatma.

Mən çox gec bildim ki, "xərçəng" xəstəliyinə tutulmuşam. Ancaq Siz bunu əvvəlcədən bilib məndən gizlətmişdiniz ki, mən narahatlıq hissi keçirməyim. Hətta gəlib mənimlə görüşəndə maraqlı kitablar gətirirdiniz ki, onları oxuyum. Ancaq daha yaxşı olardı ki, mənə bu həqiqəti bildirəydiniz. Nə qədər ki zaman varıydı, məsləhətləşib, heç olmazsa, gələcək milli proqramın tezislərini hazırlayaydıq. Yeni işlər görmək mümkün idi. Nə isə...

Onu da bilməliyik ki, nə qədər açıq-aydın danışa bilmirik, heç bir işimiz düzgün getməyəcək. Ona görə də mütləq demokratik cəmiyyət lazımdır ki, açıq danışıb məsələləri həll edək.

Türk millətinə ən lazım olan — mənəviyyata dayanaraq birləşə bilməkdir!

Əbülfəz ELÇİBƏY,
Ankara Dövlət Xəstəxanası
20.07.2000, saat 7:00

Bu arada Əbülfəz Elçibəyin xanımı Həlimə Əliyeva eks-prezidentin zəhərlənməsi barədə iddialara münasibət bildirmək istəməyib. APA-ya açıqlamasında o, ailəsinin bu məsələ ilə bağlı mövqeyini də açıqlayıb: "Ailəmizin yekdil mövqeyi bundan ibarətdir ki, heç bir halda Elçibəyin məzarının açılmasına icazə verməyəcəyik. Tutaq ki, zəhərlənmə faktı təsdiqləndi, bunun məsuliyyəti kimin boynuna qoyulacaq?"

H. Əliyeva hazırda Bakıda olmadığı üçün Elçibəyin adı ətrafında Fazil Qəzənfəroğlu və Xanım Xəlilova arasındakı mübahisədən xəbərsiz olduğunu söyləyib.

# *Bahar Muradova:* "İntensivləşməni sönməyə qoymamaq lazımdır"

"Bir halda ki, Ermənistan-Azərbaycan münaqişənin həllinin hələ digər variantı seçilməyib, danışmamaqdansa, danışmaq daha məqsədəuyğundur. Ümumiyyətlə, hər kəs belə düşünür ki, qarşılıqlı ittihamlardansa, bir araya gəlib problemin həlli yolunu müzakirə etmək daha yaxşıdır". Bunu mətbuata açıqlamasında Milli Məclis (MM) sədrinin müavini Bahar Muradova dilə gətirib. B.Muradovanın dediyinə görə, məhz bu baxımdan xüsusilə, son aylar Qarabağ münaqişəsinin həlli yönümündə danışıqlar prosesinin intensivləşməni müsbət dəyərləndirmək lazımdır. Vitse-spiker xatırladıb ki, ABŞ dövlət katibi Hillari Klintonun bir müddət öncə regiona səfərindən, eləcə də, Amerika rəsmilərinin problemin tezliklə həllinə maraqlı olduğunu bəyan etməsindən və təmas xəttində yaşanan məlum insidentlərin baş verməsindən sonra danışıqlar prosesində bir intensivləşmə var. MM sədrinin müavini hesab edir ki, hər kəs münaqişənin uzanmasının və atəşkəs rejiminin saxlanmasının artıq getdikcə mümkünsüz olduğu qənaətinə gəlir: "ATƏT rəsmiləri münaqişənin həllindən daha çox, münaqişənin yenidən alovlanmasına yol verilməməsini prioritet kimi səsləndirirlər. Bir çoxları deyirlər ki, münaqişənin başlanmasına yol verməmək əsas məqsəd deyil, buna yol verilmirsə, böyük uğurdur. Amma biz bunu uğur saya bilmərik. Bu intensivləşməni sönməyə qoymamaq və onu artıq problemin həllinə yönəltməyə cəhd etmək lazımdır. Əlbəttə ki, bu, təkcə bizim cəhdlərimizdən asılı deyil, həm də



həmsədrlərin münaqişənin nə dərəcədə sona qədər həll etmək istəyindən asılıdır. Həmsədrlər arasında hansısa dövlət təşəbbüslərini artırırsa, digəri bundan qıcıqlanır və özü bu prosesdə fəal olmağa çalışır. Bu, bir növ yarışmanı xatırladır, amma təəssüf ki, münaqişənin həllinə təsir göstərməyən nəticəsiz bir yarışmadır. Şəxsən mən istəməzdim ki, yaranmış intestivləşmə həmsədr dövlətlər arasında qısqanclıq yaratsın".

Vitse-spikerin eyni zamanda qeyd etdiyinə görə, bu intensivləşmə də nəticəyə hesablanmış proses olmalıdır: "Hər halda, Azərbaycanın artan iqtisadi və hərbi gücü ermənilərlə yanaşı onları dəstəkləyən dairələri də narahat edir. Bu, problemin həll olunmasında gücdən daha çox sülh imkanlarından səmimi şəkildə istifadə etmək istəyən və nəticə əldə olunmasına maraqlı olan qüvvələri də narahat edir. Proqnoz vermək istəməsəm də, o fikrimdə qalıram ki, indiki şəraitdə görüşmək, danışıqlar aparmaq daha yaxşıdır".

**KAMİL**

# *Maksim Mayorov:* "Ukraynanın riskə gedib Ermənistanla sövdələşmələr aparmasının mənası yoxdur"

"Bəzi KİV-in Ukraynanın Ermənistana gizli şəkildə silah tədarük etməsi haqqında dərc etdirdiyi "məxfi sənəd" əminliklə demək mümkündür ki, savadsız şəkildə hazırlanmış saxta sənəddir. Bunu sənədin tərtibatındakı üslub, mətnin məzmunu, oradakı üslub və qrammatika səhvləri, eləcə də qeyri-dəqiq məlumatlar da sübuta yetirir". Belə bir açıqlama ilə mətbuatda Ukraynanın Qara dəniz bölgəsinin öyrənilməsi üzrə Nomos Mərkəzinin eksperti Maksim Mayorov çıxış edib. O deyib ki, Ermənistanda gizli şəkildə silahların ötürülməsi məsələsi heç də bu saxta "sənədlə" bitmir: "İstisna deyil ki, Müdafiə Nazirliyində, eləcə də "Ukrspeseksport" dövlət idarəsində işləyən bəzi adamların Ermənistana qeyri-qanuni silah tədarük olunmasında əlləri var. Doğrudur, burada artıq Ukrayna tərəfi barədə yox, Ukrayna dövlət qurumlarının daxilindəki korrupsiyaçılar və təxribatçılar haqqında danışmaq lazımdır. Ukrayna üçün Ermənistanda silah biznesi tamamilə perspektivsizdir. Bakı ilə müqayisədə, İrəvan ödənişqabiliyyətli deyil. Bundan əlavə, Ermənistan onu demək olar ki, havayı silahlandıran Rusiya ilə sıx müttəfiq münasibətləri saxlamaqdadır. Ukrayna ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq çox dinamik şəkildə inkişaf edir ki, bu da həm qarşılıqlı iqtisadi maraqlara, həm də strateji əməkdaşlığın ruhuna, energetika sahəsindəki məqsədyönlü planlara uyğun gəlir. Ukrayna üçün bütün bunlarla bağlı riskə gedərək, Ermənistanla şübhəli sövdələşmələr aparmağın mənası yoxdur. Şəxsi marağını güdən insanlar belə qalmaqalları yaradan risklərə gedə bilməzlər". Onun fikrincə bu, Ukrayna rəhbərliyinin sözügedən məsələdə əli olmasına işarə etməklə hazırlanan birbaşa diskreditasiyadır: . Belə bir diskreditasiya kimə lazımdır? Ermənistanın rəsmi şəxsləri "məktubda" yazılan faktları təkzib etdilər. Əlbəttə, İrəvana Kiyevlə Bakı arasında xüsusilə hərbi-texniki sahədəki münasibətlərə soyuqluq gətirmək sərf edir, lakin bununla belə, silahların gizli şəkildə tədarük olunması ilə bağlı səs-küy qaldırmaq da onun üçün arzuolunan deyil. Birincisi, Ukrayna ilə əməkdaşlığa dair "məktubda" yazılanlar Rusiya tərəfindən qısqanclıqla qarşılana bilər, ikincisi isə belə gizli tədarükün olması faktı Ukraynadan qanunsuz tədarüklərin olunması fikrini irəli sürmüş olur". Gələn il Ukraynanın ATƏT-ə sədrliyi dövründə Qarabağ münaqişəsinin nizamlanmasında hansısa inkişafın olmasına gəlincə, M.Mayorov deyib ki, hökumət səviyyəsində Ukraynanın Qarabağ münaqişəsinin nizamlanmasında potensialı o qədər də yüksək deyil. Bu günə qədər bütün əsas sülhməramlı formatlar Ukraynanın fəal iştirakı olmadan həyata keçirilib. "Eyni zamanda, Ukraynanın mövqeyi həmişə daha çox Azərbaycanyönlü olub və bu açıq-aydın onun arbitr rolunu öz üzərinə götürməsinə mane olur. Digər tərəfdən, başqa sülhməramlılarla müqayisədə Ukrayna ictimai səviyyədə və xalq diplomatiyası sahəsində böyük üstünlüyə malikdir. Rusiyada olduğu kimi Ukraynada da iki xalqın böyük diasporları yaşayır; Qafqazdan gələnlər çətinlik çəkmədən ukraynalılarla ümumi dil tapır və mentaliteti ilə uyğunlaşır. Rusiyadan fərqli olaraq Ukraynada ksenofobiya daha az yayılıb və vətəndaş cəmiyyəti daha azaddır. Ukrayna Azərbaycan-erməni dialoqu və barışığı üçün əla meydançadır. Ümid edirəm ki, Ukraynanın azərbaycanlı və ermənilərlə işləyən ictimai təşkilatları Avropanın səylərini və Rusiyanın təcrübəsini uğurla bir yerə cəm edəcək".

**PƏRVANƏ**

# Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları peşə bayramlarını qeyd ediblər

23 avqust Azərbaycan Xüsusi Dövlət Mühafizə Xidmətinin (XDMX) əməkdaşlarının peşə bayramı günüdür. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti birbaşa Azərbaycan Respublikası Prezidentinə tabe olan xüsusi hərbi hissədir. Xüsusi Dövlət Mühafizə Xidmətinin əsas vəzifələri Azərbaycan Respublikası Prezidentinin, digər Dövlət Mühafizəsi Obyektlərinin, həmçinin Azərbaycan Respublikasında olduqları vaxt xarici ölkələrin dövlət və hökumət başçılarının təhlükəsizliyinin təmin edilməsi, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının, Milli Məclisin, Nazirlər Kabinetinin, Konstitusiya Məhkəməsinin, Xarici İşlər Nazirliyinin və Mərkəzi Seçki Komissiyasının obyektlərinin mühafizəsinin təşkil və təmin edilməsidir. Xüsusi Dövlət Mühafizə Xidməti Dövlət Mühafizəsi Obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində əks-kəşfiyyat fəaliyyətinin subyekti olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirir, Prezident rabitəsini və Xüsusi rabitəni təşkil edir. Həmçinin Dövlət orqanlarının internet şəbəkəsinin yaradılması və fəaliyyət göstərməsi Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən həyata keçirilir.

2003-cü ildən başlayaraq Xüsusi Dövlət Mühafizə Xidməti İxrac neft və qaz boru kəmərlərinin Azərbaycanın quru sahəsindən keçən hissəsinin təhlükəsizliyini təşkil və təmin edir.

Peşə bayramları münasibətilə ötən gün XDMX-nin rəhbərliyi və şəxsi heyəti Fəxri Xiyabana gələrək Heydər Əliyevin xatirəsini yad ediblər. Daha sonra Xidmətinin əməkdaşları Şəhidlər Xiyabanını ziyarət edib, Əbədi Məşəl Kompleksi önünə əklil qoyublar.

Əsas vəzifələri Azərbaycan Prezidentinin, digər dövlət mühafizəsi obyektlərinin, həmçinin respublikamızda səfərdə olan xarici ölkələrin dövlət və hökumət başçılarının təhlükəsizliyinin təmin edilməsi olan XDMX 1993-cü il avqustun 23-də Ali Dövlət, Hakimiyyət və İdarəetmə Orqanları Baş Mühafizə İdarəsi adı ilə yaradılıb. Azərbaycan prezidentinin 2002-ci il 6 may tarixli sərəncamı ilə Xüsusi Dövlət Mühafizə Xidməti adlanıb.

Xüsusi Dövlət Mühafizə Xidməti əməkdaşlarının peşə bayramı günü Prezident İlham Əliyevin 2008-ci il 21 avqust tarixli sərəncamı ilə təsis edilib.

**S.MÜRVƏTQIZI**

# Sudan qeyri-qanuni istifadə üzrə 914 fakt aşkarlanıb

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti (ASC) içməli suyun dəqiq uçotunun aparılması və sudan qeyri-qanuni istifadə hallarının aradan qaldırılması istiqamətində nəzarət tədbirlərini gücləndirib. ASC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, edilən xəbərdarlıqlara baxmayaraq hələ də bəzi abunəçilər içməli sudan sayğacdankənar və müqavilə bağlamadan istifadə edir. Təəssüflər olsun ki, bu cür hallara daha çox şadlıq evlərində, restoranlarda, hamam, camaşırxana, avtoyuma, və s. obyektlərdə rast gəlinir. "Azərsu" ASC-nin Kommersiya və Daxili nəzarət departamentlərinin əməkdaşlarının təkcə iyul ayı ərzində həyata keçirdikləri nəzarət tədbirləri nəticəsində 75-i Bakı şəhərində, 14-i isə müxtəlif rayonlarda olmaqla içməli sudan qeyri-qanuni istifadə halları ilə bağlı 89 fakt aşkarlayıb. Müəyyən edilmiş faktlar aktlaşdırıldıqdan və dəymiş zərər hesablandıqdan sonra 89 fakt üzrə ümumilikdə 160420 manat dəyərində cərimə tətbiq olunub.

Ümumilikdə 2012-ci ilin yanvar-iyul aylarında "Azərsu" ASC-nin Kommersiya və Daxili nəzarət departamentlərinin əməkdaşlarının keçirdikləri nəzarət tədbirləri nəticəsində içməli sudan qeyri-qanuni istifadə halları ilə bağlı 914 fakt aşkar edilib, dəymiş zərər qiymətləndirilərək abunəçilər 627743 manat cərimə olunub.

"Azərsu" ASC bir daha abunəçilərin diqqətinə çatdırır ki, içməli sudan qeyri-qanuni istifadə yolverilməzdir. Belə halların aşkarlanması üçün nəzarət tədbirləri mütəmadi davam etdiriləcək və qanunsuz hərəkətlərə yol verən abunəçilərin içməli su təchizatı qeyd-şərtsiz dayandırılacaq və onlara qarşı cərimə tətbiq ediləcək.

**BƏXTİYAR**

# Əmək münasibətlərinə vergi nəzarətinin təşkili sahəsində tədbirlər davam edir

Ölkə Prezidenti İlham Əliyev tərəfindən dövlət strukturları qarşısında qoyulmuş tapşırıqların icrası məqsədilə Vergilər Nazirliyi tərəfindən əmək münasibətlərinə vergi nəzarətinin gücləndirilməsi istiqamətində kompleks tədbirlər davam etdirilir. Son zamanlar işəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması istiqamətində aparılan təsirli tədbirlər nəticəsində işəgötürənlər arasında sosial məsuliyyətin güclənməsinə baxmayaraq, bəzi işəgötürənlər tərəfindən qanunla müəyyən edilmiş vergi və ödənişlərdən yayınmaq məqsədilə qanunvericiliyin tələblərinin pozulması halları hələ də davam etdirilir. Dəfələrlə edilmiş xəbərdarlıqlara baxmayaraq işəgötürənlər işçilərlə əmək müqavilələri bağlamadan və iş yerlərini rəsmiləşdirmədən vətəndaşları müxtəlif işlərin görülməsinə cəlb edir, nəticə etibarilə qeyri-qanuni məşğulluğu təmin etməklə vergilərdən yayınmaya çalışırlar.

Vergilər Nazirliyi əmək münasibətlərinə nəzarət sahəsində həyata keçirilən tədbirlər çərçivəsində işçilərlə qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək müqavilələrinin (kontraktının) bağlanılması meyarı üzrə daha bir riskli vergi ödəyicisi — "Səfalı Ticarət Mərkəzi" ASC-nin fəaliyyət sahəsi üzrə müvafiq vergi nəzarəti tədbirləri keçirmişdir.

Bakı şəhərinin Xətai rayonunda çoxmərtəbəli yaşayış binası inşa edən "Səfalı Ticarət Mərkəzi" ASC-də keçirilmiş kompleks tədbirlər nəticəsində ASC-nin rəhbərliyi tərəfindən 43 nəfər fiziki şəxsin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan müxtəlif işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edildiyi, bununla da onların gəlirlərinin gizlədildiyi aşkarlanmışdır. Əmək müqaviləsi bağlanılmayan işçilərdən və ASC-nin rəhbərliyindən alınmış izahatlardan aydın olmuşdur ki, həmin fəhlələrin əksəriyyətinin tikinti sahəsində bir neçə ay ərzində çalışdığına baxmayaraq, onların heç biri ilə əmək müqavilələri (kontraktları) bağlanılmamış və sənədləşdirmə işləri aparılmamışdır. "Səfalı Ticarət Mərkəzi" ASC-nin vergi orqanlarına təqdim etdiyi muzdlu işlə əlaqədar vergi bəyannamələrində isə cəmi bir neçə nəfər işçinin müxtəlif işlərə cəlb edildiyi bəyan edilmişdir.

Nəzarət tədbirləri zamanı həmçinin tikinti işlərinə cəlb edilmiş işçilərin hüquqlarını pozaraq onların əmək təhlükəsizliyi qaydalarına riayət edilmədən, müvafiq qoruyucu geyim və ayaqqabılarla təmin edilmədən işlədildiyi aşkarlanıb.

Vergilər Nazirliyi bir daha xəbərdarlıq edir ki, işçilərin əmək müqaviləsi olmadan işlərin görülməsinə cəlb edilməsi hallarının qarşısı gələcəkdə də qətiyyətlə alınacaq, intizamsız vergi ödəyicilərinə qarşı qanunda nəzərdə tutulan ən sərt tədbirlər görüləcək.

# Dövlət Təbiət Qoruğunda çətənə kolu aşkarlanıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Zaqatala Dövlət Təbiət Qoruğunun əməkdaşları tərəfindən avqustun 22-də növbəti reyd keçirilib. Nazirlikdən verilən məlumata görə, reyd zamanı qoruğun Gərəkli sahəsinin 05 saylı dolayı ərazisində 0,05 hektar sahədə xüsusi aqrotexniki qaydada qulluq edilərək tərkibində narkotik xassəli maddələr olan 332 ədəd çətənə kolunun əkilib-becərilməsi faktı aşkar olunub.

Faktla bağlı dərhal Balakən rayon Milli Təhlükəsizlik və Polis Şöbələrinə məlumat verilib və hazırda araşdırma aparılır.

**BƏXTİYAR**

# XİN-dən həbsdəki şairlərlə bağlı yeni açıqlama

## "ONLARIN HANSI CİNAYƏTDƏ TƏQSİRLİ BİLİNMƏLƏRİ BARƏDƏ İRAN HEÇ BİR RƏSMİ MƏLUMAT VERMİR"

İranda həbsdə olan Azərbaycan vətəndaşları barəsində hökm yaxın 15-20 gün ərzində çıxarılacaq. APA-nın məlumatına görə, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Elman Abdullayev bildirib. E. Abdullayevin sözlərinə görə, Azərbaycanın Təbrizdəki Baş Konsulluğunun nümayəndələri srağagün Azərbaycan şairlərinin işi üzrə hakimlə görüşüblər və hakim onları hökmün 15-20 gün ərzində çıxarılacağına əmin edib. Bununla belə, şairlərin konkret hansı cinayət əməlində təqsirli bilinmələri barədə Azərbaycan tərəfinə hələ də heç bir rəsmi məlumat verilməyib. E. Abdullayev Baş Konsulluğun Azərbaycan vətəndaşlarına lazımi hüquqi yardımları göstərdiyini də vurğulayıb.



Xatırladaq ki, Fərid Hüseyn və Şəhriyar Hacızadə şeir festivalında iştirak üçün İrana gedib və mayın 2-də orada həbs olunublar.

# Payızda ruh sevinci, qışda hadisə... İlqar

Hərdən eşidirəm ki, bir mövzuda iki-üç dəfə yazandan sonra adam yorulur. Daha yazmaq istəmirsən. Amma deyəsən bu tezisin bəzi istisnaları da olur. Məsələn, iki mövzu var ki, mən o barədə bəlkə də yüz dəfə yazsam, yenə yorulmaram. Birinci mövzu dindir. Bəlkə də, beş yüz dəfə bu barədə yazmışam. İkinci mövzu isə dostlarımız haqqında açılan xoş söhbətlərdir, Doğrudur, Vətən, ana, məhəbbət mövzuları da önəmlidir, ancaq şairlər üçün. Mənimki din və dostluqdur. Din haqqında dörd kitabın müəllifiyəm, dostlar haqqında isə dörd yüzdən çox məqalənin. Ancaq hələ ki, usanmaq barədə düşünmürəm. Xüsusən, İlqar Həsənov kimi bir həmkar barədə yazmaq xoş və məmnunluq gətiricidir. Üstəlik, ötən ilin avqustunda qeyd etdiyim kimi bu adamın 70 yaşı tamam olana qədər hər yay bir yazı qələmə alacağam. 70-dən sonra özü bilər. Onsuz da o qədər cavan dostları var ki, 16-17 ildən sonra həmin dostların qələmi və ya klaviaturası daha kəsərli olacaq. Qərəz...

İlqar Musa oğlu Həsənov bizim xoşbəxt həmkarlarımızdan biridir. Çünki onun jurnalist kimi özünəməxsus üslubu, istənilən məsələyə orijinal münasibəti, ən başlıcası, istənilən yazıda kifayət qədər cəsarəti və qeyri-adi dərəcədə məsuliyyəti var. Bunların hamısını bir adam haqqında deməyin özü də bir məsuliyyətdir. Ancaq biz faktı fakt kimi qəbul etmək zorundayıq. Elə həmkarlarımız var ki, ifrat dərəcədə cəsarətlidir və bütün yazılarında basıb, kəsib gedir. Nəticədə özünü məhv edir, qəzeti isə nüfuzsuz. İlqarın cəsarəti ağla söykənən cəsarətdir. Elə həmkarlarımız var ki, ehtiyatlılıq onun nəinki canında, qanındadır, hətta qələmindən düşən istənilən sözündə də adama diş ağardır. Növbəti məzuniyyətə çıxmaq üçün yazdığı ərizəni 5-6 dəfə dəyişdirən həmkarımızı az görməmişik ki? İlqarın ehtiyatlılığı ona görədir ki, heç bir yazıda kiminsə haqqının tapdalanmasını istəmir. Bir dəfə ona dedim ki, filankəs o qədər haqsızlıq edib, xalqın malını yeyib, onun haqqında nə üçün daha kəsərli yazmırsan? – Bəy, o məsələlərin hamısını mən soruşacaqdımsa, onda prokurorluq, məhkəmə, korrupsiyaya qarşı mübarizə qurumları nə üçündür? Hər kəsin özü üçün formalaşdırılmış səlahiyyət çərçivəsi var. Prokuror mənim işlərinə qarışmırsa, bu, onun məsuliyyətinin göstəricisidir, mən hüquq-mühafizə orqanlarının səlahiyyətlərinə müdaxilə etmirəmsə, bu da mənim jurnalistlik ədəbimin səviyyəsidir – deyə cavab verdi. Bu adam istənilən məsələdə öz həddini gözləməyin ustasıdır. İstənilən yazıda özünə, kollektivinə, ümumilikdə, mətbuata nüfuz qazandırmağın tərəfdarıdır və həmin istəyinə kifayət qədər nail olur.



İlqar Həsənovun xoşbəxtliyinin əsas səbəblərindən biri də odur ki, o, təkcə yaxşı yazmır, həm də yaxşı danışır. Bu iki keyfiyyətin eyni adamda təşəkkül tapması o qədər də tez-tez ələ düşən məqamlardan deyil. Oljas Süleymenov "Az – Ya" əsərində yazır: "Yazı əbədi deyil. Çoxları onu itirib. Danışıq dili – budur son səhifədən açdığımız tarixi biliklərin tükənməyən, əbədi mənbəyi. Yazılı abidələr qalmasa da, canlı dilin ki, durur, oxu o yazını". Məsələyə Süleymenovun prizmasından yanaşsaq, biz İlqar Həsənovun hər söhbətində, hər xatirəsində mükəmməl bir yazı oxuyuruq. Mən hərdən təəssüf hissi ilə düşünürdüm ki, İlqar təbli jurnalistlər axır vaxtlar az yazırlar. Amma Oljas Süleymenovun qeyd etdiyim fikrinə rast gələndən sonra şükür etdim ki, İlqar elə hər gün, hər görüşdə, hər ünsiyyətdə yazır, öz sözü, söhbəti ilə.

İlqar Musaoğlunun xoşbəxtliyini sübut edən başqa bir məqam onun çoxlu sayda dostlarının olmasıdır. Onda xüsusi, bəlkə də qeyri-adi cazibə keyfiyyəti var. İstənilən adamla bircə söhbətdən sonra həmin adam yenə də İlqarın həmsöhbəti olmaq istəyir. Onun cazibəsini heç nə neytrallaşdıra bilmir. Ancaq burada başqa bir həqiqət də var. Məşhur Amerika yazıçı və riyaziyyatçısı Martin Qardner "Milyonlar üçün nisbilik nəzəriyyəsi" adlı kitabında (Albert Enşteyn haqqındadır) yazır ki, Enşteynə görə cazibə heç zaman neytrallaşdırılmır, o, ləğv edilir. Yəni yüksəkdən düşən daşı tutub saxlamaq olar, ancaq yerin onu cəzb etməsini dayandırmaq mümkün deyil. İlqarın dostluqdakı cazibəsi də neytrallaşdırılan deyil. Ona görə də İlqarla hər görüşümüz arzu edilən, gözləniləndir.

Doğrudan da, İlqarın redaksiyaya hər gəlişi bir hadisə olur, ondan yeni söhbətlər, maraqlı faktlar, duzlu əhvalatlar gözləyirik. Ona görə də ən cavan işçimizdən ən ağsaqqal əməkdaşımıza qədər hamı onun gəlişini gözləyir, səsini, danışığını izləyir. Üç-dörd il qabaq bu məzmunda zarafatyana bir bənd söyləmişdim:

Hər hansı bir İlqara bənzədim ki, İlqarı, hər gəlişi, hər səsi işdə hadisə olsun? Mən hansı bir ilk qara bənzədim ki, İlqarı payızda ruh sevinci, qışda hadisə olsun?

Ooo, söz-söhbət başladı, nə başladı. Biri dedi ki, İlqarı proletariat rəhbərinə tay tutmağın ayıbdır, biri söylədi ki, o boyda şairin sözlərinə parodiya qoşmaq sənə üzağlığı gətirmir, bir başqası məsələyə "elmi" münasibət bildirdi: – qışda qar yağmasının nəyi hadisədir ki? O biri ona cavab verdi: ilk qar payızın axırlarında yağmalıdır, qışa qalıbsa, deməli hadisədir. Daha çox bilənimiz sual verdi ki, qar yağması niyə ruh sevinci olmalıdır? Ona da cavab verən tapıldı: Payızın yağışlarından insanın özü kimi ruhu da yorulur və ilk qar ruhu təzələyir, sevindirir.

Hamıdan sonra məsələyə münasibət bildirən İlqar Musayeviçin fikirləri isə həm maraqlı, həm də auditoriyada xoş əhval-ruhiyyə yaradılması baxımından tutarlı idi: – Bilirsinizmi, mən bu şair tayfasıyla çox oturub durmuşam, ünsiyyətdə olmuşam. Ona görə də dəqiq bilirəm ki, istənilən şairdə bir sancmaq, iynələmək məqsədi olur. Hacı da bu şeirdə mənə sataşır ki, qar kimi soyuqdur, insana yovuşmur, bizi itirib axtarmır və sairə. Öz canım üçün belədir.

Onda Telman Heydərov düzəliş verdi: Sən şairlərlə durub-oturmusan. İttifaq ki, şair deyil, jurnalistdir. İndi İlqarın cavabına baxın: – Öz canım üçün, onun sırf şair olmaması daha pisdir. Şair-publisistlər daha dəhşətli olurlar. Öz canım üçün, çox görmüşəm. Dəhşətdir.

Amma təzadlı cəhətləri də var. Məsələn, mən son 30 ildə onu ən səbirli adamlardan biri kimi tanıyıram. Ancaq kəmhövsələ olduğu vaxtları da göz görməsin. Elə vaxtlarında gərək Mehdi Mükərrəmoğlunun çox yaşamaq ümidi barədə söz açasan. Dərhal o məzmunda bir neçə əhvalat danışır və bayaqkı tornadalı, qan-qadalı anlar geridə qalır.

Bir dəfə ən yaxın dostlarımız üçün zarafat formalaşdırmışdıq. Məsələn, 20-30 il yoldaşlıq, dostluq etdiyimiz adama çox ciddi şəkildə deyirdik: "Bağışlayın, sizin adınız mənim yadımdan çıxıb". Guya, zarafat etdiyimiz adamın bizim üçün o qədər də əhəmiyyət kəsb etmədiyini sezdirirdik. Dostlarımızdan biri bu zarafatı ciddi qarşılayıb demişdi ki, get yaddaşıvu təmir elətdir. Bir başqası isə ciddi şəkildə incimişdi. Dostundan bu sözü eşidən İlqarın cavabı isə sonralar lətifəyə çevrilmişdi:

– Bağışlayın, sizin adınız mənim yadımdan çıxıb.

– Öz canım üçün elə mənim də yadımdan çıxıb.

Bu gün əziz dostumuzun ad günüdür. Ömrün növbəti ilinə qədəm qoyur. Arzu edirik bu il və qarşıdakı onilliklər onun üçün tornadosuz, qan-qadalı anlarsız keçsin. Bir də ki, öz adını heç zaman yaddan çıxarmasın. "Öz canım üçün, qətiyyən yaddan çıxmalı ad deyil".

**İttifaq MİRZƏBƏYLİ,**
**Respublikanın Əməkdar jurnalisti**

# Ədalətli seçim

Oğlum Şamil İsgəndərov 2011-ci ildə ABŞ-ın Ohayo ştatında "Case Western Reserve" universitetinə qaraciyər cərrahiyyəsi uzrə rezidenturaya qəbul olunmuşdur. 2011-ci ildə tələb olunan sənədləri vaxtında toplayıb Təhsil Nazirliyinə təqdim edə bilmədiyimiz üçün hörmətli Prezidentimiz cənab İlham Əliyevin təsdiq etdiyi "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə dövlət proqramı"ndan yararlana bilmədik.Çətinliklə də olsa bir il müddətində oğlumun xərclərini özümüz ödədik.

Bu il oğlumun sənədlərini yenidən toplayıb Dövlət proqramına qəbul edilməsi üçün Təhsil Nazirliyinə təqdim etdik. 17 avqust 2012-ci il tarixində Təhsil Nazirliyindən zəng vuraraq saat 17:00-da təhsil nazirinin müavini Qulu Novruzovun qəbuluna gəlməyimi bildirdilər. Mən Təhsil Nazirliyinə gedəndə məlum oldu ki, qəbula Dövlət Proqramına qəbul olmaq üçün iş vermiş 60 nəfər tələbə və ya onların valideynləri dəvət olunublar. Dəvət olunanların hamısını birlikdə Təhsil Nazirliyinin akt zalında Qulu Novruzov qəbul etdi. O, əvvəlcə Dövlət Proqramının əhəmiyyəti, məqsədi və məramı barədə ətraflı məlumat verdi. Hansı ixtisaslara daha çox üstünlük verildiyini bildirdi.Sonra dəvət olunmuş 60 nəfərin və eləcə də nazirliyin bu sahəyə cavabdeh olan əməkdaşlarının iştirakı ilə seçim başlandı.

Qulu Novruzov hər bir tələbəni əvvəlcədən hazırlanmış siyahı üzrə qaldırırdı, onun attestat qiymətini, TQDK-nın keçirdiyi qəbul imtahanlarında topladığı balı, xarici dil imtahanlarının nəticəsini və əgər tələbədirsə semestr qiymətlərini elan edirdi. Nəticələri əla olan tələbələri təbrik edib ona uğurlar diləyirdi. On nəfər tələbə dəyərləndirildikdən sonra artıq yerdə qalan 50 nəfər özü-özlüyündə proqrama qəbul olunub-olunmayacağını müəyyən edə bilərdi.

Çünki seçim elə şəffaf,ədalətli və aşkarlıq şəraitində aparılırdı ki, hər kəs onun barəsində veriləcək qərarı özü müəyyən edə bilərdi. Hətta belə bir epizod da oldu ki, nəticələri zəif olan bir tələbə ona güzəşt olunmasını xahiş etdi. Qulu Novruzov həmin ixtisas üzrə onun nəticəsindən yaxşı nəticə olmasa onun proqrama qəbul edəcəyini bildirdi. Lakin siyahının sonlarında həmin ixtisas üzrə bir tələbə oldu ki, onun nəticələri daha yüksək idi. Qulu Novruzov birinci tələbəyə bu halda hansı tələbənin göndərilməsinin daha ədalətli olacağını soruşdu. Nəticəsi zəif olan tələbə isə daha yüksək nəticələri olan tələbənin seçilməsini istədi. Bir neçə tələbənin sənəd çatışmazlqları oldu ki, onlara sənədlərini təqdim etmək üçün vaxt verildi.

Oğlumun attestat qiyməti 5, TQDK-nın keçirdiyi qəbul imtahanının nəticəsi 649.9 bal, Azərbaycan Tibb Universitetinin yekun qiyməti 5, İstanbul Universiteti Cərrahpaşa tibb fakültəsinin bitirərkən 4 ballıq sistem üzrə yekun qiyməti 3.44, Amerikada rezidenturaya qəbul imtahanının nəticəsi 140-260 ballıq sistem üzrə 248 bal olduğuna və Amerikanın müxtəlif tanınmış jurnallarında 10-a yaxın elmi məqaləsi çap olduğuna görə onun adı çəkilməmişdən həmin turu keçəcəyinə əmin idim və belə də oldu. Qəbula dəvət olunmuş 60 nəfərin çox hissəsi seçim turunun ilk mərhələsini keçdi. Nəticələri zəif olanlar isə bu turu keçə bilmədilər.

Ümumiyyətlə seçimdə bir prinsipə çox ciddi əməl olunurdu. Əgər tələbənin göstəriciləri yüksəkdirsə və seçdiyi ixtisas prioritetdirsə həmin tələbəyə uğurlar arzulayırdılar. Əgər tələbənin göstəriciləri zəifdirsə və seçdiyi ixtisas prioritet deyilsə ona yox deyirdilər. Qəbul zamanı tələbələrə tam sərbəstlik verilmişdi. Onların hər bir tələbinə diqqətlə yanaşılırdı, tələbləri oradaca təhlil olunurdu və lazımi qərar qəbul edilirdi.

Mən bir vətəndaş və eləcə də bir valideyn olaraq Azərbaycan gənclərinin dünyanın inkişaf etmiş ölkələrinin nüfuzlu universitetlərində təhsil almalarına belə bir şərait yaratdıqlarına görə çox hörmətli Prezidentimiz cənab İlham Əliyevə minnətdarlığımı bildirir, ona uzun ömür, cansağlığı, fəaliyyətində yeni uğurlar diləyirəm. Həmçinin hörmətli Preidentimizin təsdiq etdiyi bu Dövlət Proqramının icrasını həyata keçirən Təhsil Nazirliyinə, təhsil naziri Misir Mərdanova, nazir müavini Qulu Novruzova, nazirlikdə çalışan bütün əməkdaşlara tələbələrin dövlət proqramına qəbulunun yuxarıda qeyd etdiyim kimi aşkarlıq şəraitində, çox ədalətli və dəqiq həyata keçirtdiklərinə görə öz minnətdarlığımı bildirirəm.

**Məhəmməd İSGƏNDƏROV**
**Laçın rayon sakini**

## "Fənərbağça"nın hücumçusuna Rusiya və İspaniyadan təklif var



"Fənərbağça" klubunun hücumçusu Miroslav Stoka təkliflər gəlməkdə davam edir.

Slovakiyalı futbolçu bu dəfə Rusiya və İspaniyadan yeni təkliflər alıb.

Adı açıqlanmayan komandalar Stok üçün 12 milyon avro ödəməyə hazırdır. "Fənərbaxça"nın baş məşqçisi Aykut Kocaman da bu təklifi müsbət qarşılayıb. Kocaman Stoku satacağı təqdirdə "Valensiya"dan Tino Kostanı transfer etməyi planlaşdırır.

Qeyd edək ki, Stokla İngiltərənin "Kvins Park Reyncers" və Səudiyyə Ərəbistanının "Əl Şabab" klubları yaxından maraqlanır.

## "Beşiktaş"ın ulduz futbolçusu Premyer Liqa yolunda



Türkiyənin "Beşiktaş" klubunun ulduz futbolçusu Rikardo Quarejma karyerasını İngiltərə Premyer Liqasında davam etdirə bilər.

Portuqaliyalı futbolçu "Liverpul"un maraq dairəsinə düşüb.

Liverpul təmsilçisi 28 yaşlı futbolçunun transferi üçün "Beşiktaş"a 8 milyon avro təklif edib. "Beşiktaş"da heç də yaxşı günlərini keçirməyən Quarejma da "Liverpul"un təklifini müsbət qarşılayıb.

Qeyd edək ki, 2010-cu ildə "Beşiktaş"a transfer olunan Quarejma keçirdiyi 46 oyunda 8 qola imza atıb.

## ELANLAR

Quba rayon Qəçrəş kənd sakini Əlirzayev Mahir Zümərəddin oğluna məxsus 274 saylı qeydiyyat vəsiqəsi və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

---

Quba rayonu 1 Nügədi kəndində yerləşən 8 sot torpaq sahəsi olan Şükürov Mütəllim Firidun oğluna məxsus JN 1250 F kod-30319018 nömrəli torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.




## TƏBRİK

**VÜSALI 17** yaşı tamam olması və instituta daxil olması münasibətilə atası Beydulla,anası Arzu,qardaşı Arif,bacısı Aygül,onun həyat yoldaşı Fədail və balaca qızları Ayla təbrik edir.

Həyatda bütün arzularına çatmağı, sağlam və xoşbəxt olmağını arzu edirlər. Bütün əzizlərin və doğmaların adından Qətibə xanım vüsalına çatmağını diləyir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Timuçin Əfəndiyev Bakı Metropoliteninin rəisi Tağı Əhmədova qardaşı
**BEYTULLA ƏHMƏDOVun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Tərcümə Mərkəzinin kollektivi Ramiz Rövşən və Yaşara anaları
**PƏRZAD xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Afaq Məsud, Vaqif Cəbrayılzadə, Zakir Fəxri, Saday Budaqlı və Tofiq Abdin Ramiz Rövşən və Yaşara anaları
**PƏRZAD xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Məryəm Əlizadə, İsrafil İsrafilov Ramiz Rövşən və Yaşara anaları
**PƏRZAD xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kamran Nəzirli ailəsi ilə birlikdə Ramiz Rövşənə, Yaşar Əliyevə və Mirzalı İsmayılova əzizləri
**PƏRZAD xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Nəsir Əhmədli Ramiz Rövşən və Yaşar Əliyevə anaları
**PƏRZAD xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rüstəm Kamal Ramiz Rövşən və Yaşar Əliyevə anaları
**PƏRZAD xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rafiq Hacıyev Ramiz Rövşən və Yaşar Əliyevə anaları
**PƏRZAD xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əli Aslanoğlu Ramiz Rövşən və Yaşara anaları
**PƏRZAD xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Adil Minbaşıyev Ramiz Rövşən və Yaşara anaları
**PƏRZAD xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**
**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar Əliyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov
Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2816
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA və "OLAYLAR"ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.